## G8 toplantısında Putinin Çıxışı və Azərbaycan

## ق۸ توپلانتی سیندا پوتین نین چیخیشی و آذربایجان

telviziyon və mətbuatında Azərbaycanın adının səslənməsi diqqəti çəkməkdədir. Buda qatil Putin cənablarının öz çıxışında Azerbaycanda Amerika ilə birlikdə raketlərin yerləşdirilməsini irəli sürmesindən qaynaqlanır. Bunu qeyd etmək yerində olarki, bu toplantıda Azərbaycan iştirak etmirdi, və Putinə də Azərbaycanı təmsil etmə icayəsi verilməmişdi. Çünki Azərbaycan müstəqil bir ölkədir. Özünün hökuməti və prezidentidə vardır. Belə bir sual ortaya çıxırki, belə bir vəsiqəyumluğu bu qatil cənaba kim vermişdir?!

Putin bu çıxışı ilə bir dəfə daha demokıraısıdan, insan haqlarından, dövlətlərin suverenliyindən nə anladığını dünya ictimaiyyəti gözləri qarşısinda sərgiləmişdir. Bu onun günahi deyildir. Bu o qatili dəvət edən, bu cinayətkarı tabağa qoyan, cinayətlərinə göy yumanların günahıdır. Bu orada toplanan demokratik ölkələrin özləri üçündə tovhindir. Bu işi ilk olaraq Almanın keçmiş baş naziri Şiröder cənabları etmişdir. onu Almana dəvət edib, Alman kimi demokrat bir ölkənin, demokratik şəkildə seçilmiş Parlementosunda, ona çıxış haqqı verib, üstəlik onu böyük demokrat adlandırmışdı. O sözlərinin və dəvətinin müzdünü ,baş nazirliyindən sonra almışdır. Elə o dəvət kimi , bu dəvətdə onların demokrası haqda dediklərinə inancın azalmasına səbəb olmaqdadır. Qərbililər Putin cənablarını yaxşı tanırlar. Onun qaş gözünə aşıq deyirlər. Amma Avrupa və qərb ölkələri üçün bugün mühüm məsələ Ursiyətin qzı, nəfti, başqa yer altı qaynaqları və 150 milyonluq bazarıdır. Təsüflə bu ölkələr bunu açıq deməkdən ağrınırlar. Onlar əməldə öz çıxarlarını xatirinə Çəçənistanı. demokrasini , insan haqlarini fəda etdilər. Bu Güney Azərbaycanlılar üçün bir dərs olmalıdır. Bu dünyada özlərini demokrat, insan haqlarının mudafiəçisi adlandıran ölkələrdə öz çıxarlarını hər şeydən üstün görürlər. Lazim olsa Tehran terorist rejimi ilədə muamiləyə gedərlər. Putinin bu toplantıya çağrılmasının elə ana səbəbi budur. Yoxsa İtaliya, Hind, Brezil , ispaniya və....başqa ölkələr Ursiyətdən daha çox sənayeləşmiş ölkələrdirlər. Nəyə onlar bu toplantıda yoxdurlar?!

Putin Azərbaycan dövlət və millətindən soruşmadan , Azərbaycanın bir numayəndəsi bu toplantıda olmdan belə bir təklifi ortaya atması həyasızlıq və utanmazlığın zirvəsidir. Putin cənabları bunu bilməsi lazimdir ki, **Azərbaycan Ursiyətin və başqa bir şəxsin şəxsi malikanəsi deyildir.Ayərbaycan suveren , mustəqil bir dövlətdir. Ona vəsiqəyum lazim deyildir.** Putin cənabları hənuz 70 il Azərbaycanı ursiyətin mustəmərəsində saxlayıb, bu 70 ildə azərbaycana vurduğu mali və mənəvi xəsarətin verilməsini düşünməlidir. Bu cənabı belə bir pişnəhadı(təklifi) etməyə məcbur edən bir neçə amil vardır:

1. Məskova keçmiş imperiyası xuliyasında yaşamaqda , hənuz keçmişdəki soviyetlərin müstəmərəsində olan ölkələri öz təsir dayirəsi hesab etməkdədir. Buna görədə Çek cimhuriyyətində və Lehistanda(Poleniya)Amerika raketlərinin yerləşdiriləsi ilə muxalifət etmekdədir.
2. Bu Qafqaz ölkələri üçündə keçərlidir. Amerika və qərb ölkələri Xəzər bölgəsini öz istiratejik mənafeləri sahəsi elan etmişlər. Buna görədə bölgənin nəftini avrupaya daşımaq üçün Baki _Ceyhan nəft qurşağını pılanlaşdırıb, həyata keçirdilər. Avrupalılr bu düşüncə əsasında Azərbaycan və Gürcüstanı Avrupa şurasına aldılar. Uzun vədəli olaraq bu ölkələrin NATO əskəri birliyinə(paktına) alınmaları gözlənir. Bu Urusları və yeni Çar putini qıcıqlandırır. Tikrar öz əyağını bu bölgəyə soxmaq cəhdindədir. Ana _ babalarimız demişkən qapıdan qovulan , bacadan soxulmaq istəyir. əlbətdə bu işdə özümüzdən olan Asımılasıyona uğramış _ruslaşmış satqınlarında olduğunu unudmamaq lazimdir.

Biz Azərbaycanlılara görə bu qatil cənab ilk olaraq Azərbaycanın müstəqilliyini , suverenliyini , erazi bütünlüyünü sözdə zox əməldə tanımalıdır. İran terorist rejimi ilə və ermәni canilərilə millətimizə qarşı əməkdaşlığa son qoymalıdır. 1918 dən sonra Urusların əli ilə Azərbaycandan qoparılmış bütün ərazilər tikrar Azərbaycana qaytarılıb, ərazı bütünlüyü təmin edilməli , 70 il soviyet dövründə Ayərbaycana vurulmuş madi və mənəvi xəsarəti ödəməlidir. Bütün bunlar icra edildikdən sonra, iki mustəqil dövlət olaraq , bərabər huquqlu oturub danışmaq olar. Azərbaycanımızın uzun vədəli mənafeini düşünərək , bəzi əməkdaşlıqlara gedilə bilər. Quzey Azərbaycanda hakimiyyətdə hər hansı birisinin olmasından asılı olmıyaraq , Azərbaycanda hər hansı bir yad ölkənin raketlərinin yerləşdirilməsi, yaxud cassluq cahaylarının quraşdırılıb _ işə salınması ancaq və ancaq 50 millyonluq Ayərbaycan millətinin qərarı ılə ola bilər. Qəbələ Casusluq mərkəzinin ömrunədə həm son qoyulmalıdır.

Uruslar bunu öz ərazilərində qoya bilirlər. Qəbililər demişkən Azərbaycan Moz cimhuriyyəti deyildir. Güney Ayərbaycanda dodurqayı, həsən soxdu dəyirmanı yaxud matı meyxanası deyildir, diyərlər. Millətimizə görə Qatil Putinin bu toplantıda Azərbaycanı belə raketlər üçün munasib yer göstermesi, Yuni ayının 10 dada, utanmadan Ursiyətin necə diyərlər xarici işlər nazirinin bunu CCN teliviziyonunda tikrarlaması əməldə Azərbaycanın müsteqilliyini tanımamaqdır. Azərbaycan dövlətinə, suverenliyinə beynəlxalq səhnədə hörmətsizlik və əhanət sayılır.

**Çox_ Çox təəsüflər olsun ki, bu günə qədər Azərbaycan hökuməti və dövlət başçısı bu əhanət və dedi_ kodulara reaksiya göstermemişdir.** Bir suretdeki, Yuli ayının yedisində Putinin bu təklifinə reaksiya gösterilməli idi. Urusların Azərbaycandakı elçisi(səfiri) Azərbaycanın xarici işlər nazirliyinə çağrılıb, etiraz məktubu verilməli idi. həmdə beynəxalq səviyədə Azərbaycanın müsteqil bir dövlət olduğuna etinasız yanaşıldığından bu haqda birləşmiş millətlər təşkilatınada muraciət edilməsi əlverişlı olardı. **Çox_ Çox təsüflə bu günə qədər Azərbaycan tərəfindən bu haqda rəsmi bir açıqlamada yayınlanmamışdır.**

**Bizə görə bu Ayərbaycanın suverenliyinə rəsmi mudaxilə sayılır. Yad bir ölkənin dövlət başçısının beynəxalq bir toplantıda bu dediklərinə laqeyd yanaşmaq məsuliyyətsizlikdir. Bizə görə Azərbaycan hökuməti və dövlət başçısı qorxmadan _ çəkinmədən bir suveren dövlət kimi öz görüşlərini elan etməsi gərəkir**. yuxarıda qeyd edildiyi kimi, bu eyni zəmanda beyəlxalq səhnədə Azərbaycaın müstəqilliyinə , dövlət və millətinə vurulmuş ən böyük tovhin və əhanətdir.

Biz Azərbaycan milləti tərəfindən bunu kəsinliklə diyə bilərik ki, bizim ərazilərimizdə və həta qonşularımızın ərazilərində hər hansı casusluq mərkəzinin, atom silah və raketlərinin , Atom enerji mərkəzlərinin(reaktorlarinin) olmasına razı deyildir. Millətimiz bölgəmizin qeyd olunanlardan təmiz,

آردي ۴ـ نجی یاپراقدا( صحیفه ده)